*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    10 aprel 2019-cu il    № 27 (2344)    Qiyməti 30 qəpik


# Hərbi Hava Qüvvələri helikopter bölmələrinin taktiki-uçuş məşqləri keçirilib



*Ordumuz xalqımızın milli düşüncəsində ali və müqəddəs ucalıqda dayanır, dövlətimizin varlıq, mövcudluq və milli kimlik meyarıdır. Bu amil Azərbaycan Ordusunun fəaliyyətinin prioritet istiqamətidir və onun şəxsi heyəti dövləti, xalqı qarşısında Vətən borcunu şərəflə, sədaqətlə yerinə yetirir.*

Güclü ordu güclü dövlətçilik, sabitlik və inkişaf deməkdir. Ümummilli Liderimiz deyirdi ki, Azərbaycan təkcə bu gün yox, gələcəkdə də torpaqlarını, dövlət müstəqilliyini qorumaq üçün güclü orduya malik olmalıdır. Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla davam etdirən ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev dövlət müstəqilliyimizin qarantı olan güclü ordumuzu daha da gücləndirərək dünyanın ən güclü orduları sırasına çıxmasını təmin etmişdir. Eyni zamanda, müharibə şəraitində yaşayan, torpaqlarının 20 faizi işğal altında olan respublikamızın müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə də xüsusi diqqət yetirilir.

Son illərdə Azərbaycanın ordu quruculuğunda müxtəlif miqyaslı hərbi təlimlər keçirilir. Bu təlimlər sübut edir ki, Azərbaycan Ordusunun şəxsi heyəti istənilən döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirməyə qadirdir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, Hərbi Hava Qüvvələri helikopter bölmələrinin sonuncu taktiki-uçuş məşqləri də bu məqsədlə keçirilib. Hərbi Hava Qüvvələrinin son təlimində aviasiya vasitələrinin ümumqoşun hissələrinə havadan atəş dəstəyinin həyata keçirilməsi üzrə tapşırıqlar icra edilib. Məşqlərin praktiki hissəsində bazalanma aerodromlarından uçuşlar edən helikopterlər poliqonlarda şərti düşmənin yer hədəflərini döyüş atışları ilə məhv ediblər.

Məşqlərdə qarşıya qoyulan tapşırıqları helikopter ekipajları müvəffəqiyyətlə yerinə yetirib.

Son zamanlar qazanılan qələbələr, nümayiş olunan hərbi paradlar, keçirilən təlimlər Azərbaycan Ordusunun gücünü göstərir. Bu güc təsdiq edir ki, işğal altında olan ərazilərimiz azad olunacaqdır.

Bu gün hər bir Azərbaycan əsgəri Azərbaycan Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında xidmət etməkdən qürurludur. Azərbaycan əsgəri torpaqlarımızın müdafiəsində cəsarətlə dayanır, müstəqilliyimizin qorunması və ölkəmizin ərazi bütövlüyünün təmin olunması amalıyla xidmət edir.

Keçirilən son təlim də ordumuzun qarşıya qoyulan istənilən vəzifəni uğurla yerinə yetirməyə hazır olduğunu bir daha təsdiqlədi, onun peşəkarlıq səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəldiyini göstərdi.

Ordunun gücünü, döyüş əzmini, malik olduğu hərbi texnikanı göstərən bu təlim də sübut edir ki, ordumuz Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlayacaq. Əminik ki, tezliklə Azərbaycan Ordusunun sayəsində Qarabağa Günəş doğacaq!

**"Azərbaycan Ordusu"**

# Müdafiə naziri: Təlimlər genişmiqyaslı hücum əməliyyatlarının keçirilməsi məqsədinə xidmət etməlidir



*Aprelin 6-da Mərkəzi Komanda Məntəqəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.*

Müdafiə nazirinin müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, birlik komandirlərinin iştirakı ilə keçirilən müşavirəyə videobağlantı vasitəsilə birləşmə komandirləri və digər məsul zabitlər də cəlb olunub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hərbi hissələrə səfərlərini və Aprel döyüşlərinin nəticələri ilə bağlı səsləndirdiyi fikirləri xatırladan Müdafiə naziri ordu qarşısında qoyulan son tapşırıqları müşavirə iştirakçılarının diqqətinə çatdırıb.

Müdafiə naziri döyüş hazırlığı planına uyğun olaraq, xüsusilə gecə vaxtı, döyüş şəraitinə, real əraziyə uyğun keçirilən təlim və məşqlərin intensivliyinin artırılması, şəxsi heyətin döyüş hazırlığı səviyyəsinin, bölmələrin döyüş qabiliyyətinin yüksəldilməsi, birlik və birləşmələrin silah, döyüş və xüsusi texnikasının yay mövsümündə istismar rejiminə keçidinə hazırlığın təşkili, eləcə də hərbi xidməti başa vurmuş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması və hərbi xidmətə çağırılmış gənc əsgərlərin qəbulunun mütəşəkkil qaydada həyata keçirilməsi ilə bağlı müvafiq vəzifəli şəxslərə tapşırıqlar verib.

Ermənistanın hərbi-siyasi rəhbərliyinin son zamanlar səsləndirdiyi məsuliyyətsiz çıxışlarına toxunan general-polkovnik Zakir Həsənov bunun cəbhə xəttində gərginliyin artmasına səbəb olacağını qeyd edib. Müdafiə naziri plana uyğun olaraq keçirilən bütün təlimlərin genişmiqyaslı hücum əməliyyatlarının aparılması məqsədinə xidmət etdiyini bildirib. Nazir bütün səviyyələrdən olan komandir və rəis heyətinə düşmənin fəaliyyətinin daim müşahidə edilməsi, hərəkətinin nəzarətdə saxlanılması, onun törədə biləcəyi istənilən təxribata qətiyyətli cavab verməlri və hər an aktiv döyüş əməliyyatlarının başlanmasına hazır olmaları barədə konkret göstərişlər verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Silahlı Qüvvələrin Baş Qərargah rəisinin Səudiyyə Ərəbistanına rəsmi səfəri



*Səudiyyə Ərəbistanında rəsmi səfərdə olan Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov bu ölkənin Silahlı Qüvvələrin Baş Qərargah rəisi general Faiyad bin Hamed Al Rovaili ilə görüşüb.*

Görüşdə ölkələrimizin orduları arasında əlaqələrin inkişaf perspektivləri, eləcə də hərbi, hərbi-texniki və hərbi təhsil sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub, "Azərbaycan Respublikası hökuməti və Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş" imzalanıb.

* * *

Səudiyyə Ərəbistanına rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun rəhbərlik etdiyi nümayəndə heyəti İslam ölkələrinin anti-terror hərbi koalisiyası Mərkəzində olub.

General-polkovnik N.Sadıkov ilə qurumun rəhbərliyi arasında keçirilən görüşdə mərkəzin strukturu, əsas məqsədi və tapşırıqları, prioritet fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilib.

* * *

Səudiyyə Ərəbistanına rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun rəhbərlik etdiyi nümayəndə heyəti Səudiyyə Ərəbistanı Kral Hərbi Hava Qüvvələrinin (HHQ) Əməliyyat Mərkəzini ziyarət edib.

General-polkovnik N.Sadıkovla Səudiyyə Ərəbistanı HHQ-nin komandanı Turki bin Bəndər bin Əbdüləziz arasında görüş keçirilib.

Tərəflər iki ölkə arasında hərbi əməkdaşlıq məsələlərini müzakirə ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**9 aprel 2019-cu il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan, qumbaraatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Krasnoselsk rayonunun Cil kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər, Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Acarlı, Novruzlu, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Çoxmillətli Sülhü Dəstəkləmə Əməliyyatları üzrə təlimatçı hazırlığı kursu" keçirilib



Azərbaycan Respublikası və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Müdafiə nazirlikləri arasında imzalanmış hərbi əməkdaşlıq planına əsasən, Bakıda "Çoxmillətli Sülhü Dəstəkləmə Əməliyyatları üzrə təlimatçı hazırlığı kursu" keçirilib.

Britaniya Hərbi Məsləhətçi Təlim Qrupu tərəfindən təşkil edilən praktiki məşğələlərdə Azərbaycan Ordusunun hərbi qulluqçuları bilik və bacarıqlarını təkmilləşdiriblər.

Kursda iştirak etmiş hərbi qulluqçulara sertifikatlar təqdim olunub.

# Məcburi köçkünlər Dağlıq Qarabağda ilk tibbi yardım üzrə təlim keçiblər

Aprelin 8-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Dağlıq Qarabağın işğaldan azad edilmiş ərazisindəki Şıxarx qəsəbəsində, məcburi köçkünlərin yaşayış kompleksində Müdafiə Nazirliyinin dəstəyi ilə ilk tibbi yardım üzrə təlim təşkil edib.

Dövlət Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Sarıcalı Hərbi Hospitalının tibb işçiləri tərəfindən açıq havada keçirilən təlimə kompleksdə məskunlaşmış 100-dən çox məcburi köçkün cəlb olunub. Onlar hər hansı qəza zamanı və həyat üçün təhlükə yaradan vəziyyətlərdə, o cümlədən hərbi əməliyyatlar nəticəsində xəsarət alanlara həkim gələnədək ilk yardım göstərilməsi üsul və qaydaları üzrə praktiki məşqlərdə iştirak ediblər.

Təlimçi həkimlər məcburi köçkünlərin suallarını cavablandırıb, onlara ilk tibbi yardımın xüsusiyyətləri və əhəmiyyəti barədə ətraflı məlumat veriblər.

General-mayor Hikmət Həsənovun şəxsi nəzarəti altında aparılan təlimə tibb xidməti polkovnik-leytenantı Hüseyn Əliyev rəhbərlik edib.

Dövlət Komitəsi işğaldan azad edilmiş və qoşunların təmas xəttinə yaxın ərazilərdə yaşayan məcburi köçkün vətəndaşlarımız arasında ilk tibbi yardım üzrə maarifləndirmə işinin aparılmasını vacib sayır.

Təlimlərin məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı digər yaşayış yerlərində də aparılması nəzərdə tutulur.

# “Aprel döyüşlərinin zəfər bayraqlarına düzlən!” devizi altında hərbi vətənpərvərlik bayramı keçirilib

*Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) birgə təşkilatçılığı ilə Aprel Zəfərinin üçüncü ildönümünə həsr olunmuş "Aprel döyüşlərinin zəfər bayraqlarına düzlən!" devizi altında kütləvi vətənpərvərlik bayramı keçirilib.*



Müdafiə və Təhsil nazirliklərinin rəsmiləri, millət vəkilləri, UNEC-in rəhbərliyi, şəhid ailələri və müharibə veteranları əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevə ehtiramlarını bildirərək büstünün qarşısına qızılgüllər düzüb, Şəhidlər xatirə kompleksini ziyarət edib və abidə önünə əklil qoyublar.

UNEC-in əsas tədris binasının bayramsayağı bəzədilmiş həyətində, qala divarının qarşısına toplaşan millət vəkilləri, generallar, zabitlər, əsgərlər, Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları, eləcə də universitetin müəllim və tələbələri ötən il Azadlıq meydanında keçirilən möhtəşəm hərbi paradda nümayiş olunan, Aprel zəfərinin qazanılmasında, həmçinin ötən ilin mayında Naxçıvan Muxtar Respublikasında Günnüt kəndinin azad edilməsində, mühüm strateji yüksəkliklərin ələ keçirilməsində, bununla da 11 min hektar ərazinin nəzarətə götürülməsində müstəsna xidmətləri olmuş hərbi hissələrin döyüş bayraqlarını alqışlarla qarşılayıblar.

Tədbir iştirakçıları hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət himnini birlikdə ifa edərək, Vətənimizə, dövlətimizə, bayrağımıza, Ali Baş Komandanımıza sadiqliklərini bir daha bildiriblər.

Azərbaycan Prezidenti İlham Əliyevin aprelin 2-də Müdafiə Nazirliyinin xüsusi təyinatlı qüvvələrinin hərbi hissələrindən birini ziyarət edərkən hərbi qulluqçularla görüşü zamanı Aprel döyüşləri barədə dediyi fikirlər səsucaldıcılar vasitəsilə səsləndirilib: "Aprel döyüşləri tariximizin şanlı səhifəsidir. Aprel döyüşləri bizim tarixi qələbəmizdir, müasir tariximizdə ən uğurlu hərbi əməliyyatlardan biridir. Bu döyüşlər göstərdi ki, Azərbaycan əsgəri, zabiti həm peşəkardır, həm Vətənə bağlıdır, həm də istənilən anda öz vəzifə borcunu yerinə yetirməyə hazırdır".

Tədbir iştirakçıları Ali Baş Komandanın hər bir əmrinə hazır olduqlarını, dövlət başçısının daxili və xarici siyasətini ürəkdən dəstəklədiklərini və Aprel zəfərini təzələmək üçün əmr gözlədiklərini alqış və səsləndirdikləri şüarlarla bəyan ediblər.



"Aprel döyüşlərinin zəfər bayraqlarına düzlən!" adlı ədəbi-musiqili-xoreoqrafik kompozisiya tədbir iştirakçılarını bir bayraq altında, bir amal uğrunda Azərbaycan naminə mübarizəyə çağırıb. Respublikanın Xalq artisti Samir Cəfərovun, Əməkdar artistlər Cahangir Qurbanov və Ehtiram Hüseynovun, eləcə də digər sənət ustalarının, əsgər xorunun, Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyətinin ifa etdikləri hərbi marşlar, vətənpərvərlik mahnıları və döyüş rəqsləri tədbir iştirakçılarında işğal altında olan torpaqlarımızın da tezliklə azad ediləcəyinə inamını artırıb. "Hər şey Ordu üçün, hər şey Qələbə üçün!" nidaları ətrafa yayılıb.

Aparıcılar: - Xalq artisti Pərvanə Qurbanova və Əməkdar incəsənət xadimi Abdulla Qurbani Aprel zəfərinin Azərbaycan Ordusunun böyük qələbəsi, xalqımızın birliyinin, həmrəyliyinin, vətənpərvərliyinin qələbəsi, o cümlədən Ulu Öndərimizin Ali Baş Komandanlığı ilə 1993-cü ilin sonu, 1994-cü ilin əvvəlində Füzuli və Cəbrayıl rayonlarının 22 yaşayış məntəqəsinin azad edilməsi ilə nəticələnən qələbədən uzun illər sonra məhz müdrik Prezidentimiz, qətiyyətli sərkərdəmiz İlham Əliyevin xalqımıza bəxş etdiyi, müasir hərb tariximizin ən böyük qələbəsi olduğunu vurğulayıblar.

Qeyd edilib ki, gündən-günə möhkəmlənən, qüdrətlənən, ən müasir silah-sursatlarla, zirehli texnikalarla, artilleriya qurğuları, zenit-raket kompleksləri, aviasiya vasitələri ilə təmin edilən, peşəkar, dövlətin daimi diqqət və qayğısı ilə əhatə olunan Azərbaycan Ordusu istənilən vəzifəni yerinə yetirməyə hazır və qadirdir.

Nəzərə çatdırılıb ki, son zamanlar ordu ilə xalqın mənəvi birliyi, ictimaiyyətlə əlaqələr daha da genişlənib, "Açıq qapı" günü tədbirləri ənənəyə çevrilib. Xalq öz ordusuna inanır, ona güvənir. Azərbaycan Ordusunun şəxsi heyəti isə xalqın bu etimadını, inamını döyüş və mənəvi-psixoloji hazırlıqda, təlimlərdə qazandığı uğur və nailiyyətlərlə doğruldur.

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov çıxış edərək Müdafiə Nazirliyinin birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələri ilə sıx əlaqə saxladıqlarını, onlarla birlikdə silsilə vətənpərvərlik tədbirləri keçirdiklərini bildirib.

Rektor böyük iftixar hissi ilə nəzərə çatdırıb ki, həm Aprel döyüşləri zamanı, həm də bu döyüşlərdə qazanılan zəfərdən sonra bütün xalqımız kimi, UNEC-in 20 minlik kollektivi də ayaq üstə idi. Hamı bir nəfər kimi döyüşlərə müntəzir idi. “Şəhidlər versək də, ruhdan düşmür, düşmən təxribatlarına qarşı əks-hücuma keçərək, Ermənistanın özləri haqqında yaratdıqları "yenilməz ordu" mifini darmadağın edən Azərbaycan Ordusunun uğurlarını alqışlayırdıq. Aprel döyüşlərində bizim məzunlarımız da qəhrəmanlıqlar göstərir, canlarından, qanlarından keçirdilər. UNEC-i bitirmiş əsgər Mahir Mirzəyev və Tural Dadaşov bu döyüşlər zamanı şəhidlik məqamına yüksəldilər. Hər ikisi möhtərəm Prezidentimizin sərəncamı ilə ölümlərindən sonra döyüş medalları ilə təltif olundular. Biz onların dövlət bayrağımıza bükülmüş cənazələrini "Şəhidlər ölməz, Vətən bölünməz!" nidaları altında Vətən torpağına əmanət etdik. Bu gün də müəllim, tələbə və texniki işçilərimiz qələbə əzmi ilə, Azərbaycanın ərazi bütövlüyünün tezliklə bərpa olunacağına inam hissi ilə yaşayır. Biz Azərbaycan Ordusunun hər bir uğuruna sevinir və qəhrəman döyüşçülərimizlə fəxr edirik. Biz hər an Ali Baş Komandanın hər bir əmrinə hazırıq!”

Rektor Ə.Muradov bir neçə gündən sonra yenidən cəbhə bölgələrinə səfər edəcəklərini, ümumiyyətlə, Azərbaycan Ordusunun şəxsi heyəti ilə əlaqələrini bundan sonra da genişləndirəcəklərini diqqətə çatdırıb.



Müdafiə Nazirliyinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi - Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini general-mayor Rasim Əliyev belə bir tədbirin Azərbaycan Dövlət İqtisad Universitetində keçirilməsinin heç də təsadüfi olmadığını qeyd edərək deyib: "UNEC-in professor-müəllim və tələbə heyəti ordumuza daim mənəvi dayaqdır. Onların tez-tez qruplarla cəbhəyanı bölgələrə səfərləri, şəxsi heyətlə görüşləri, Vətən əsgərlərinin mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun və vətənpərvərlik hissinin daha da yüksəldilməsi üçün göstərdikləri səylər təqdirəlayiqdir. Bununla yanaşı, ali təhsil ocağında tələbələrlə aparılan vətənpərvərlik işi də yüksək səviyyədədir. Bunun nəticəsidir ki, UNEC-in məzunları ordumuzda öz əsgəri borclarını şərəflə yerinə yetirirlər. Müdafiə Nazirliyinin rəhbərliyi universitetin bu istiqamətdə fəaliyyətini həmişə yüksək qiymətləndirib. Ordu ilə xalqın mənəvi əlaqələrinin daha da genişləndirilməsi qarşımızda duran əsas vəzifələrdəndir. Bu, həm ordunun gücünü artırır, həm də xalqımızın orduya, qələbəyə inamını daha da yüksəldir".

Aktyor Toğrul Rza və Elmədin Məmmədov şəhid Mahir Mirzəyev və Tural Dadaşovun qiyafəsində tüstü-duman içindən çıxaraq tədbir iştirakçılarına və valideynlərinə müraciət edərək "Bir də həyata qayıtsaydıq, yenidən Vətən uğrunda şəhidliyi seçərdik" demələri hər bir tədbir iştirakçısında qürur hissi oyadıb. Şəhid valideynlərinin övladlarının obrazlarını yaradan aktyorlara sarılaraq "Vətən sağ olsun!" deməleri duyğulu anlar yaşadıb.

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbaninin layihəsi olan "Aprel döyüşlərinin zəfər bayraqlarına düzlən!" vətənpərvərlik bayramı işğal altında da olan digər torpaqlarımızın da tezliklə azad ediləcəyinə və həmin bölgələrdə ucaldılan dövlət bayrağımızın Azadlıq meydanına gətiriləræk Qələbə paradında nümayiş olunacağına inamını daha da artırıb.

Hərbi vətənpərvərlik bayramı Ali Baş Komandana ünvanlanan "Zəfər marşı" ilə başa çatıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Hərbi qanunvericiliyin gənclər arasında təbliğinə dair müzakirələr aparılıb

*Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı Azərbaycan Respublikasının Hərbi Prokurorluğu ilə birgə "Hərbi vətənpərvərliyin və hərbi qanunvericiliyin möhkəmləndirilməsi" mövzusunda tədbir keçirib.*



AZƏRTAC xəbər verir ki, tədbirin məqsədi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, hərbi qanunların və hüquq normalarının möhkəmləndirilməsi, eləcə də Prezident İlham Əliyevin aprelin 3-də imzaladığı "Mediasiya haqqında" Qanunun tətbiqinə dair Fərmanın qanunvericiliyin təkmilləşdirilməsi baxımından əhəmiyyətinin gənclərə çatdırılmasıdır.

Tədbirdə çıxış edən Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov Respublika Hərbi Prokurorluğu ilə müntəzəm keçirilən tədbirlərin əhəmiyyətindən, veteranların bu istiqamətdə üzərinə düşən vəzifələrdən danışıb. O, ölkəmizdə qanunçuluğun möhkəmləndirilməsi və hüquq sisteminin inkişafı istiqamətində Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl islahatların ulu öndər Heydər Əliyev dövlətçilik siyasətinin uğurla davam etdirilməsinin göstəricisi olduğunu deyib.

Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov bütün sahələrdə vətəndaşların hüquq və azadlıqlarının hərtərəfli qorunduğunu, bu istiqamətdə məqsədyönlü islahatların gündən-günə dərinləşdirildiyini vurğulayıb. C.Xəlilov Azərbaycan Ordusunun əsgər və zabitlərinin qanunlara hər zaman əməl etdiklərini, nizam-intizamın daha da möhkəmləndiyini bildirib. Təşkilatın sədr müavini Azərbaycan Respublikası Prezidentinin imzaladığı "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqinə dair Fərmanın respublikamızın hüquq sisteminin təkmilləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edəcəyini diqqətə çatdırıb.

Azərbaycan Respublikası baş prokurorunun müavini - hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kursun, həyata keçirdiyi məhkəmə-hüquq islahatlarının, həmçinin prokurorluq orqanlarına göstərdiyi etimad və diqqətin onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla reallaşdırıldığını vurğulayıb. X.Vəliyev Azərbaycan Prokurorluğunun dövlətçiliyimizin mühüm sütunlarından birinə, Respublika Hərbi Prokurorluğunun hərbi qanunçuluğun qorunması, gücləndirilməsinin təminatçısına çevrildiyini bildirib.

Hərbi Prokuror ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ordu quruculuğunda aparılan geniş islahatlardan, ordumuzun inkişafındakı xidmətlərindən danışıb. Bu siyasətin hazırda Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirildiyini diqqətə çatdıran X.Vəliyev deyib ki, hazırda Azərbaycan Ordusu dünyanın ən güclü ordularından birinə çevrilib. Ordumuzda şəxsi heyət üçün hər cür şərait yaradılıb. Bu gün əsgərlərimiz orduda fəxr və şərəflə xidmət edirlər. Aprel döyüşləri Azərbaycan Ordusunun hərbi qüdrətini, şəxsi heyətin qələbə əzmini və mənəvi-psixoloji hazırlığını düşmənlə yanaşı, bütün dünyaya göstərdi. Bu gün qürurla deyə bilərik ki, Azərbaycan Ordusu Prezident, Ali Baş Komandan İlham Əliyevin əmri ilə erməni işğalçılarına qarşı döyüşməyə, işğal altındakı torpaqlarımızı azad etməyə hər an hazır və qadirdir.

Bakı Dövlət Universitetinin hüquq fakültəsinin dekanı, professor Əmir Əliyev, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının hüquq kafedrasının professoru Bəhram Zahidov, Milli Aviasiya Akademiyasının hüquqşünaslıq kafedrasının müdiri, professor İbrahim Quliyev və başqaları çıxışlarında ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra dünyada nüfuzlu dövlətə çevrilməsindən, ölkəmizdə hüquq təhsilinin inkişafı istiqamətində hər cür şəraitin yaradılmasından, bütün sahələrdə olduğu kimi, məhkəmə-hüquq sahəsində də həyata keçirilən mütərəqqi islahatlardan danışıblar. Çıxışlarda, həmçinin gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsinin, müstəqilliyimizin və ictimai-siyasi sabitliyin qorunmasının hər bir vətəndaşın müqəddəs vəzifəsi olmasının, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bağlı maarifləndirmə, hüququ təbliğat işinin aparılmasının vacibliyi qeyd olunub. Natiqlər gəncləri Prezidentimizin ətrafında sıx birləşməyə və Vətənin müdafiəsinə hazır olmağa çağırıblar.

Sonda gənclər maraqlandıran suallar cavablandırılıb.

# Aprel döyüşləri gücümüzün və birliyimizin tərənnümüdür

*Aprel zəfərinin üçüncü ildönümü respublikamızda böyük coşqu ilə qeyd edilir. Müdafiə Nazirliyi və Tərtər rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə bayram tədbiri keçirildi. Tədbirdə "N" hərbi hissəsinin şəxsi heyəti, Tərtər rayon ictimaiyyəti, millət vəkilləri, qazilər, şəhid ailələri, incəsənət nümayəndələri və kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak etdilər.*



Əvvəlcə ulu öndər Heydər Əliyevin büstü ziyarət edilərək önünə gül dəstələri qoyuldu, ümummilli liderimiz və Vətənimizin müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət himni səsləndirildi.

Bildirildi ki, 2016-cı ilin Aprel döyüşləri xalqımıza qələbə sevinci yaşatmaqla bərabər, Böyük Qələbənin də başlanğıcı oldu. Düşmən təxribatının qarşısı alındı, ona sarsıdıcı zərbə vuruldu və ordumuz minlərlə hektar ərazini işğalçılardan azad etdi.

General-mayor Hikmət Həsənov bildirdi ki, 2016-cı ilin martın ortalarından etibarən Ermənistanın silahlı qüvvələri təxribatlarını artıraraq cəbhəboyu zonada yerləşən yaşayış məntəqələrinin dinc əhalisinin atəşə tutulmasını daha da gücləndirdi. "Aprelin 2-nə keçən gecə bütün cəbhəboyu mövqelərimiz müxtəlif silahlardan intensiv atəşə tutuldu. Qarşı tərəfin hərbi fəallığını genişləndirməsinə imkan verməmək, onun fəaliyyətinin qarşısını almaq məqsədilə komandanlıq əməliyyat şəraitini qiymətləndirərək dərhal cavab tədbirlərinin görülməsi üçün qərar verdi. Qısa müddətdə 2000 hektardan artıq ərazi azad edildi və daha çox ərazi əməliyyat baxımından nəzarətimiz altına keçdi."

Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov qeyd etdi ki, düşmənlə təmas xəttində yaşayan qəhrəman tərtərlilər Aprel döyüşlərinin təəssüratlarını bu gün də yaşayırlar. O bildirdi ki, döyüşlər həm düşmənlərimizə, həm də bütün dünyaya sübut etdi ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində dünyanın inkişaf etmiş orduları sırasında qərarlaşan güclü ordumuz var. "Biz əminik ki, ordumuz Ali Baş Komandanın əmri ilə işğal altında olan bütün Azərbaycan torpaqlarını azad etmək gücündədir."

Müdafiə Nazirliyinin əməkdaşı, dövlət qulluqçusu Zümrüd Səmədova oğlunun Aprel döyüşlərinin iştirakçısı olması ilə qürur duyduğunu bildirməklə yanaşı, övladının və əsgər dostlarının bu gün də Ali Baş Komandanın döyüş əmrinə hazır olduğunu diqqətə çatdırdı.



Aprel şəhidlərindən kapitan İnqilab Quliyevin atası Çingiz Quliyev və gizir Nicat İsgəndərovun anası Maya İsgəndərova oğullarının Vətən, torpaq uğrunda şəhid olması ilə qürurlandıqlarını qeyd edərək Qarabağ müharibəsi veteranlarına, əlillərə və şəhid ailələrinə olan diqqət və qayğıya görə ölkə rəhbəri İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirdilər.

Tədbirin bədii hissəsində incəsənət nümayəndələri hərbi qulluqçulara və qonaqlara vətənpərvər ruhlu musiqilərlə xoş hisslər yaşatdılar.

Sonda incəsənət nümayəndələrinə fəxri fərmanlar təqdim olundu.

**Baş leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu"**

## Pakistanın Hərbi Dəniz Akademiyasının nümayəndə heyəti Azərbaycanda



Pakistan İslam Respublikasının Hərbi Dəniz Qüvvələrinin Hərbi Akademiyasının qərargah kursunda təhsil alan Pakistan, Banqladeş, Səudiyyə Ərəbistanı və Malayziya HDQ-nin yüksək rütbəli zabitlərindən ibarət nümayəndə heyəti ölkəmizdə səfərdədir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tanışlıq səfəri çərçivəsində kontr-admiral Muştaq Ahmedin başçılıq etdiyi heyət Azərbaycan Hərbi Dəniz Qüvvələrinin bazası və Silahlı Qüvvələrin Hərbi Akademiyasını ziyarət edib, eləcə də aidiyyəti dövlət qurumları və təhsil müəssisələrində görüşlər keçiriblər.

## AAHM-də Beynəlxalq humanitar hüquq mövzusunda seminar keçirilib

*2019-cu ilin fəaliyyət planına əsasən, Müdafiə Nazirliyinin dəstəyi və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Bakı ofisinin təşkilatçılığı ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Beynəlxalq humanitar hüquq mövzusunda seminar keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə Beynəlxalq Qırmızı Xaç Komitəsinin Sülhməramlı qüvvələrlə əlaqələri, Beynəlxalq humanitar hüququn prinsipləri, qaydaları və hərbi əməliyyatlarda tətbiqi, döyüşlərdə Beynəlxalq humanitar hüquq amili və digər mövzularda məruzələr dinlənillib, brifinqlər təqdim olunub.

Şəxsi heyət qarşısında müxtəlif mövzularda çıxışlar edən BQXK-nin Azərbaycan nümayəndəliyinin əməkdaşları kursantların suallarını cavablandırıblar.



*Gənc zabitlərimiz*

## "Tezliklə Laçında da bayrağımız dalğalanacaq"

*Hər birimizin qəlbində müqəddəs bir hiss - Vətənə olan məhəbbət hissi yaşayır. Vətən sevgisi insanın qəlbinə hakim kəsilən, özündən asılı olmadan yaranan bir ümmandır. Hər bir kəs bu dünyaya göz açdığı anda ilk olaraq anasını görürsə, ilk qədəmlərini Vətən torpağında atır və torpaq sevgisinin hərarətini duyur. Bu hərarət zaman keçdikcə o qədər artır ki, insan bir an belə Vətənsiz yaşaya bilmir. Vətən sadəcə müəyyən sərhədləri olan coğrafi bir məkan deyildir. Vətən xüsusi sevgi və hörmətə layiq müqəddəs torpaqdır. Ata-babalarımız bu torpaqlarda yaşayıb, onu becərib, qoruyub, onun uğrunda vuruşublar. Onlar bu torpaqlar uğrunda canlarından keçib, şəhidlik zirvəsinə yüksəliblər, - bu sözləri əslən Laçın rayonundan olan leytenant Abbasəli Bəşirov dedi.*



Gənc zabitlə "N" hərbi hissəsində tanış oldum. 1996-cı ildə Qax rayonunda anadan olsa da, onun ürəyi yenə də Laçınla döyünür. Gözlərinə baxdıqca Vətən həsrəti çəkdiyini görməmək mümkün deyil. Elə bu həsrət Abbasəlinin yolunu hərb sənətinə bağlayıb. 2011-2014-cü illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alan gənc zabitimiz daha sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. Nəhayət, 2018-ci ildə leytenant rütbəsində xidmətə başlayıb. Artilleriya bölməsində şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinə birbaşa cavabdeh olan zabit ordumuzda xidmət edənlərin hər birində vətənpərvərliyin, yurda bağlılığın yüksək səviyyədə olduğunu qeyd etdi:

- Bu gün hamımızın qəlbində torpaq həsrəti var. Təkcə ata ocağından didərgin düşmüş qaçqın və köçkünlərimiz yox, bütövlükdə Azərbaycan xalqı Qarabağı azad görmək arzusundadır. Bu həsrətdi, bu sevgidi bizləri yaşadan, bu torpağa bağlayan. Hərdən zəng vurub atamla danışanda mənə telefonda dediyi son kəlməsi "Oğul, tezliklə qələbə müjdəsini verin bizlərə" sözləri olur. Mən Laçında olmamışam, oraları görməmişəm. Ancaq atamın göstərdiyi şəkillərdə, kövrələ-kövrələ dediyi sözlərdə, həsrət dolu baxışlarında görmüşəm Laçınımızı. Onlara söz vermişəm ki, tezliklə bayrağımız Laçında da dalğalanacaq. Bütün xalqımız da əmin olsun ki, Azərbaycan əsgəri bir qarış torpağını belə güzəştə getməyəcək. Tez bir zamanda Ali Baş Komandanımızın əmri ilə işğalda olan torpaqlarımızı azad edərək xalqımıza qələbə sevincini bəxş edəcəyik.

Zabitə "Komandir olmaq asandırmı?" sualını ünvanladım. Leytenant A.Bəşirov sualıma cavab olaraq dedi:

- Əsgərlər yalnız fərdi tapşırıqlara görə cavabdehlik daşıyırlar. Komandir isə bütün kollektivə görə məsuliyyət daşıyır. Buna baxmayaraq şəxsi heyət öz vəzifələrini bilir və cavabdehliklərini dərindən dərk edir. İndi bölməni idarə etmək çətin deyil. Əsgərlərimiz vəzifə borclarını günü-gündən daha da dərindən öyrənir, verilən tapşırıqları vaxtında icra edirlər. Bilik və bacarıqlarını artırmaq üçün müntəzəm olaraq onlara döyüş hazırlığı dərsləri keçirilir. Ona görə də onların əksəriyyəti hərbi xidmətlərini əsgər kimi başa vurduqdan sonra könüllü olaraq yenidən ordu sıralarına qatılırlar.

Leytenant Abbasəli Bəşirov forma daşımağın qürurverici, zabitlik peşəsinin ən şərəfli peşə olduğunu da qeyd etdi. "İnsanın nəyə qadir olduğu onun işi və əməli ilə ölçülür. Bütün əməllərin zirvəsi isə Vətənin müdafiəsində dayanmaqdır. Ən yüksək vətəndaşlıq Vətənə xidmətdir. Bütün şəxsi heyətin xidmətindən razıyam. Hər kəs Vətənə şərəfli xidməti ilə qürur duyur. Nə qədər ki, ürəyimiz Vətən sevgisi ilə döyünür, başımızın üstündə üçrəngli bayrağımız dalğalanır, Azərbaycanın ərazi bütövlüyü naminə canımızdan keçməyə hazırıq."

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

## Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində tibbi ləvazimatların çatışmazlığı səbəbindən hərbçilərin hospitala göndərilməsi kütləvi hal alıb.

Fevralın son beş günü ərzində 31 hərbi qulluqçu terapiya, 12 hərbi qulluqçu isə cərrahiyyə bölməsi olmaqla, düşmən ordusunun 46 hərbi qulluqçusu Ağdərədə hospitala yerləşdirilib.

Adı çəkilən hərbi tibb məntəqəsinə daxil olan iki ağır xəstə reanimasiya bölməsinə yerləşdirilib, adı gizlədilən bir nəfər gənc əsgər isə infarktdan ölüb.

Yaxınları ölən hərbçinin əvvəlcədən ürək xəstəsi olmasına baxmayaraq hərbi xidmətə aparıldığını iddia edirlər.

Ölən hərbçi barədə ictimaiyyətə açıqlama verilməsə də, faktla bağlı araşdırma aparılır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbçiləri arasında silah-sursatın və hərbi əmlakın oğurlanması, satılması ilə bağlı açılan cinayət işlərinin sayı çoxalmaqda davam edir.

Eçmiədzin şəhər prokurorluğunun əməkdaşı Vahaq İskandaryanın hərbi hissəyə göndərdiyi məktubda deyilir ki, Ermənistan ordusunun əsgəri Rafael Hovanesyan xidmət yerindən qaçdığına görə valideynləri prokurorluğa şikayət ediblər. Onlar bildiriblər ki, övladları mütəmadi olaraq zorakılığa və təzyiqlərə məruz qaldığı üçün bu addımı ataraq xidmət yerindən qaçmaq məcburiyyətində qalıb.

Hərbi hissə komandanlığı əsgərə qarşı edilən təzyiq faktını ört-basdır etməyə çalışır. Hadisə ilə bağlı araşdırma davam edir.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbçiləri arasında baxımsızlıq və tibbi ləvazimatların çatışmazlığı səbəbindən xəstələnmə halları çoxalıb. Lakin xəstələrin komandirlər tərəfindən müalicəyə göndərilməsi müşkül məsələyə çevrilir. Bunun ən əsas səbəbi isə ön xətt bölmələrində döyüş növbətçiliyinə cəlb ediləcək şəxsi heyətin çatışmamasıdır.

Neçə gündür xəstəlikdən və yüksək hərarətdən əziyyət çəkən, hava hücumundan müdafiə bölməsində xidmət edən erməni hərbi qulluqçu Aşot Qrutyanın müalicəyə göndərilməsi, onun valideynlərinin yalnız bir çox yerlərə şikayət etməsindən sonra mümkün olmuşdur.

Həkimin dediyinə görə, müalicəsi intensiv terapiya bölməsində davam etdirilən əsgər A.Qrutyanın sağlamlıq durumu stabil ağır olaraq qalır. O, da bildirilir ki, xəstə əsgərin müalicəsi üçün tələb olunan dərmanlar da onun valideynləri tərəfindən alınır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Azərbaycan xanlıqları. Rus imperiyasının Qafqaz istilası. Gülüstan və Türkmənçay müqavilələri.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan tarixinə dair tarixi və bədii ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirmək tövsiyə olunur.*

**Suallar:**

**1. Azərbaycan xanlıqları.**

**2. Rus imperiyasının Qafqaz istilası. Gülüstan və Türkmənçay müqavilələri.**

*Azərbaycan xanlıqları*

Azərbaycan xanlıqları - XVIII əsrin 40-cı illərində indiki Azərbaycan Respublikası, Ermənistan və Cənubi Azərbaycan ərazisində yaranmış müstəqil feodal dövlətlərinə tarixşünaslıqda verilən ad. Şəki və Quba xanlıqları istisna olmaqla, digər xanlıqlar əsasən Nadir şah Əfşarın 1747-ci ildə qətlindən sonra meydana gəlmiş, XIX əsrin 20-30-cu illərində mərhələ-mərhələ Qacar İran dövlətinin və Rusiya imperiyasının nəzarəti altına keçmişdir.

XVII yüzillikdə tədricən dövlət müstəqilliyini itirmiş olan Azərbaycanda istiqlal hərəkatı başlandı. Mərkəzi hökumət çıxışları hər dəfə amansızlıqla yatırır, sərt hərbi və inzibati-siyasi tədbirlər həyata keçirirdi. Bütün bunlara baxmayaraq, Azərbaycan dövlətçiliyinin bərpası ideyasını məhv etmək mümkün olmadı. Azərbaycan ərazisində onlarca xanlıq yarandı.

**Cənubi Azərbaycan xanlıqları**

Güney Azərbaycanda yaranan xanlıqlar arasında Urmiya xanlığı mühüm yer tuturdu. Xanlığın əsasını Nadir şahın əmisi oğlu Fətəli xan Əfşar qoymuşdu.

Təbriz və Xoy xanlıqları Dunbuli tayfasından olan nəslin əlində idi. Çox da böyük ərazi və əhalisi olmayan Qaradağ xanlığının başında Qaradağ tayfalarına başçılıq edən Kazım xan (1747-1752) dururdu. Marağa xanlığı hələ Nadirin sağlığında burada hakim olan Əliqulu xan Müqəddəmin əlində idi. Ərdəbil xanlığını 1792-ci ilədək Nəzərəli xan Şahsevən idarə edib. O, Ərdəbil, Xalxal və Muğandakı şahsevən tayfalarını birləşdirmiş, mahalların etibarlı idarəsini təşkil edə bilmişdi. Nəzərəli xandan sonra oğlu Nəsirəli xanlıq taxtına çıxdı.

Maku xanlığını Bayat boyundan olan Əhməd Soltan (1747-1778), Sərab xanlığını isə Şəqaqi boyundan olan Əli xan (1747-1786) yaratmışdır.

Güney Azərbaycan xanlıqları ictimai-siyasi və mədəniyyət mərkəzləri olan şəhərlər ətrafında yaranmışdır. Xanlar başlıca olaraq el-tayfa başçıları içərisindən çıxırdı.

**Şimali Azərbaycan xanlıqları**

Azərbaycanın cənub-şərqində Talış dağları, Xəzər dənizi və Muğan düzü arasında Talış xanlığı yerləşirdi. Xanlığın banisi Seyid Abbas idi. Onun ölümündən sonra Qara xan hakimiyyətdə olmuşdu (1747-1786). Qara xan yerli hakim təbəqəni özünə tabe etməyə nail oldu, xanlığın mərkəzi Astaradan Lənkərana köçürüldü.

Əski Qarabağ bəylərbəyliyi ərazisində iki xanlıq - Qarabağ və Gəncə xanlıqları yarandı. Qarabağda cavanşir, iyirmi dörd, otuz iki, kəbirli, baharlı və başqa türk boyları yaşayırdı. Bu vilayətin idarəsi XVI yüzilin birinci yarısından qızılbaş Qacar tayfasının Ziyəddin oymağından olan Ziyad oğlu nəslinin əlində idi. Nadirin "şah seçkisindən" sonrakı cəza tədbirləri nəticəsində Ziyadoğullarının hakimiyyəti zəiflədi, Xəmsə məlikləri isə güclənməyə başladılar. Qarabağ torpaqları üçün belə bir ağır çağda Pənahəli bəy Cavanşir burada hakimiyyətini bərqərar edərək müstəqil Qarabağ xanlığının yaradılmasına nail oldu.

O, Qarabağın Sarıcalı kəndində anadan olmuşdu. Mirzə Camal yazır: "Mərhum Nadir şah Qarabağ, Gəncə, Tiflis və Şirvan vilayətlərini aldıqdan sonra, ellər və kəndlər arasında görüb tanıdığı hər bir şücaətli və işgüzar adamı yanına çağırıb, öz yaxın qulluqçuları sırasına alar və onu məvacib, ehtiram və mənsəb sahibi edərdi. O cümlədən, ellər arasında Pənahəli bəy Sarıcalı Cavanşir adı ilə şöhrət tapmış, hər işdə fərqlənmiş, ad çıxarmış, müharibə və davada tay-tuşuna üstün gələn və xüsusilə mərhum Nadir Rum əhli qoşunları ilə etdiyi müharibələrdə (XVIII yüzilin 30-cu illərindəki İran-Türkiyə savaşı nəzərdə tutulur) şücaət göstərmiş Pənah xanı da öz yanına apardı". Lakin Muğan qurultayından sonra Nadir onun hakimiyyətini qəbul etmək istəməyən qarabağlılara divan tutmağa, əhalini Əfqanıstan və Xorasana sürgün etməyə başlamışdı. Bu tədbirə etiraz etdiyinə görə Pənahəli bəyin qardaşı Fəzləli xan edam olunmuşdu. Bunu görən Pənahəli bəy "şah Xorasanda olduğu zaman, fürsət tapıb bir neçə qohumu və yaxın adamı ilə 1737-1738-ci illərdə Qarabağ vilayətinə qaçdı. Şah onun qaçmasından xəbər tutarkən onu yolda ələ keçirmək üçün ardınca çaparlar göndərdi. Lakin mümkün olmadı. Azərbaycan sərdarına, Gəncə, Tiflis və Şirvan hakimlərinə qəti fərmanlar göndərdi ki, Pənahəli xanı harda tapsalar, tutub şahın hüzuruna göndərsinlər, şahın əmri ilə Pənahəli xanın ailəsini və qohum-qardaşını çox incidib cərimə etdilərsə də, fayda vermədi".

Beləliklə, hələ Nadirin sağlığında Pənahəli bəy şah qulluğundan boyun qaçırıb müxalifətə keçmişdi. Nadir şahın ölümündən sonra Qarabağ torpaqlarında müstəqil dövlətin bütün göstəricilərini özündə birləşdirən Qarabağ xanlığı yarandı.

Gəncədən didərgin salınmış Ziyadoğullarının da geri qayıtması üçün yol açıldı. Gəncə xanlığının banisi II Şahverdi xan Ziyadoğlu oldu. O, 1747-ci ildə Gəncəyə gələrək burada hakimiyyətini qurdu. O, Gəncədəki İran qarnizonunu darmadağın etməkdə ona köməklik göstərmiş II İrakliyə 10 min tümən qızıl pul verəcəyini bildirmişdi. Ancaq sözünü yerinə yetirə bilmədi. Onun oğulları Məhəmməd Həsən xan (1760-1778) və sonra onun yerinə keçmiş Məhəmməd xan bu borcu ödəməkdən boyun qaçırmışdır.

Naxçıvan və İrəvan xanlıqları da siyasi həyatda müəyyən yer tuturdu.

Naxçıvan xanlığının əsasını Kəngərli boyunun başçısı Heydərqulu xan qoymuşdu. Nadir şah Naxçıvanın idarə olunmasına xüsusi diqqət yetirirdi. Şahın ölümündən sonra onun məmurları qovuldu və Naxçıvan müstəqil xanlıq elan edildi.

İrəvan xanlığı XVIII əsrin ortalarında yaranmış feodal dövləti idi. Xanlığın əsasını Mir Mehdi xan qoymuşdu. Bu xanlıq Ağrı vadisi, Dərələyəz və Göyçə gölü arasındakı torpaqlarda yerləşirdi. 1828-ci il martın 21-də Naxçıvan və İrəvan xanlıqları ləğv edildi.

Beləliklə, XVIII yüzilliyin 40-cı illərində Azərbaycanın ictimai-siyasi həyatında böyük dəyişiklik baş verdi. İyirmiyədək müxtəlif xanlıq və onlardan asılı olan xırda inzibati-siyasi qurumlar yarandı. Bununla olduqca mürəkkəb, ziddiyyətli və faciəli bir dönüş başlandı. Bu dönüş 1828-ci ilədək sürdü.

**Şimal Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğalı**

1805-ci ildə Qacar İran hakimiyyəti ilə bağlanmış sülh müqaviləsinə əsasən, paytaxtı Şuşa olmaqla Qarabağ, eləcə də Şəki və Şirvan xanlıqları Rusiyaya birləşdirildi. 1806-1813-cü illərdə Rusiya imperiyasının hərbi təcavüzü nəticəsində Bakı xanlığı, Quba xanlığı, Gəncə xanlığı, Talış xanlığı, Dərbənd xanlığı Rusiya imperiyasına daxil oldu. Nəhayət, Rusiya Naxçıvan və İrəvan xanlıqlarını da işğal etdi.

İşğal olunmuş xanlıqların ərazisində özünün hakimiyyətini bərkitməyə çalışan Rusiya imperiyası, ərazilərə İrandan və Türkiyədən köçən xristian ermənləri yerləşdirməyə başlamışdır. Bu siyasətin nəticəsində təkcə 1828-ci ildən 1830-cu ilədək təxminən 130 min erməni köçkünü (bunlardan 50 mini Qarabağ xanlığının ərazisində) Azərbaycan xanlıqlarının ərazilərində məskunlaşdırılmışdır.

*Rus imperiyasının Qafqaz istilası. Gülüstan və Türkmənçay müqavilələri*

Tarixin bütün dövrlərində xalqımız müxtəlif siyasi-hərbi münaqişələrə cəlb olunmuş, nəticədə zaman-zaman əraziləri işğal olunmuş, insanları qətlə yetirilmişdir. Müharibələr nəticəsində xalqın minilliklər boyu formalaşmış mənəvi-dini-milli dəyərlərinə ziyan dəymiş, torpaqlarının bir hissəsi əldən getmiş, Cənubi Qafqaz Rusiyaya birləşdirildikdən sonra bu proses güclənmişdir.

Hər dəfə xalqımızın faciələri, ərazilərinin işğalı səbəbləri ilə bağlı materialları, əski sənədləri araşdırarkən belə bir qənaət yaranır ki, tariximizin bütün qanlı səhifələri Azərbaycanın Rusiya ilə İran arasında bölüşdürülməsinə gətirib çıxarmış Gülüstan və Türkmənçay müqavilələrindən başlayır. Çar Rusiyasının Azərbaycana qarşı ekspansionist siyasəti rəsmən 1804-1813-cü illər Rus-İran müharibəsi ilə başlayır. 1805-ci ildə Azərbaycanın Qarabağ və Şəki xanlıqları ilə Rusiya arasında Kürəkçay müqaviləsi imzalanır. Müqaviləyə görə, bu xanlıqlar Rusiya tərəfindən ilhaq edilir və müstəqil xarici siyasət yürütməkdən məhrum olur. 1805-ci ilin axırlarına doğru Bakı və Şirvan xanlıqları da işğal edilir. Talış xanlığının işğalı ilə Rusiyanın Şimali Azərbaycanı tamamilə özünə ilhaq etməsi prosesi başa çatır. Bu mərhələ başa çatdıqdan sonra İranın Rusiya ilə müqavilə bağlaması reallaşır və sülh danışıqları başlayır. 1813-cü il oktyabrın 16-da Gülüstan kəndində, rus ordugahında məşhur Gülüstan müqaviləsi imzalanır. Bu müqavilə Çar Rusiyasının Azərbaycanı işğal etdiyini rəsmən təsdiqləyir. Müqaviləyə əsasən, Gəncə, Qarabağ, Şəki, Şamaxı, Quba və Talış xanlıqlarının əraziləri, Şərqi Gürcüstan və Dağıstan da Rusiyaya birləşdirilir. Xəzər dənizində donanma saxlamaq hüququ yalnız Rusiyaya verilir. Bu o vaxt idi ki, rus çarı I Aleksandr Napoleon Bonaparta qarşı Leypsiqdə müharibə cəbhəsində idi. Ancaq İranla sülh müqaviləsi ona Fransadan daha vacib idi. Bu hadisə tariximizdə çox faciəvi rol oynamışdır.

1826-cı ildə Qacarın qoşunlarının Rusiyanın nəzarətində olan Azərbaycan torpaqlarına daxil olması ilə Rusiya-İran müharibəsi yenidən başlayır. Döyüşlərdə Qacarın qoşunları ağır məğlubiyyətə düçar olur. 1826-cı ilin axırlarında Şəki və Lənkəran xanlıqları da ləğv olunur, 1827-ci ildə Rusiya Azərbaycanın ərazilərini işğal edə-edə Təbrizə girir və şəhər rusların əlinə keçir. 1828-ci ilin yanvar-fevral aylarında ruslar Urmiya və Ərdəbilə girirlər.

Rusiya Dərbəndi özünə birləşdirdi, Borçalını Gürcüstana, İrəvanı, Zəngəzuru, Göyçəni və Dərələyəzi ermənilərə verdi. Nəticədə, Azərbaycan torpaqları hesabına sonralar Ermənistan dövləti yaradıldı.

1828-ci il fevralın 10-da İngiltərənin səfiri Mak Donaldın vasitəçiliyi ilə Təbriz yolunun üstündə yerləşən Türkmənçay kəndində I Nikolay ilə Fətəli şah arasında sülh müqaviləsi imzalandı. Bununla da Azərbaycanın işğalı başa çatdı. Müqavilənin 15-ci maddəsinə əsasən, erməni əhalisinin İrandan Cənubi Qafqaza hərəkətinə icazə verildi. Müqavilənin bağlanması münasibətilə dərhal rus toplarından 101 yaylım atəşi açıldı. Ertəsi gün "xoş xəbər"i Aleksandr Qriboyedov Rusiyaya çatdırdıqdan sonra Petropavlovsk qalasında da top atəşləri açıldı, rus xalqı bu münasibətlə təbrik edildi. Bu, o Qriboyedovdur ki, 1818-ci ildə rus missiyasının katibi kimi İrana göndərilir və burada iki il işləyir. 1821-ci ildə İrana qayıtdıqdan sonra general A.Yermolovun komandanlıq etdiyi ordunun diplomatik katibi vəzifəsinə təyin edilir. 1826-cı ildə çar hakimiyyəti tərəfindən dekabristlərin işi üzrə həbs edilir. O, bütün məxfi sənədləri öncədən məhv etdiyindən günahı sübuta yetirilmir. Bu səbəbdən də azadlığa buraxılır və yenidən Qafqaza qayıdaraq burada diplomatik işdə çalışır. 1827-ci ildə Türkiyə ilə İran arasında danışıqlarda vasitəçi kimi çıxış edir. Türkmənçay müqaviləsinin hazırlanmasında iştirak edir. Bundan sonra isə o, Rusiyanın İranda səfiri təyin edilir.

Rus-İran müharibəsində həlledici sonluq olan Türkmənçay müqaviləsi Azərbaycanı param-parça etdi. Müqaviləyə əsasən, Araz çayı sərhəd olmaqla, Azərbaycanın ərazisi şimal və cənub hissələrinə bölündü. Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı, Talış xanlığı, Şərqi Gürcüstan və Dağıstan Rusiyaya təslim edildi.

Gülüstan müqaviləsindən fərqli olaraq, Türkmənçay müqaviləsinin ağır şərtləri daha tez reallaşdı. Yeni işğal olunmuş İrəvan və Naxçıvan xanlıqlarının torpaqları "erməni vilayətləri" elan edildi. Halbuki qədim İrəvan torpaqları lap qədimdən türk-müsəlman yurdu olmuş, düşmən qüvvələri qarşısında möhkəm dayanmışdı. Hətta rus-İran müharibəsində burada yaşayan azərbaycanlılar çarın işğalçı qoşunlarına qarşı qəhrəmancasına döyüşmüşdülər. Lakin ermənilərin xəyanəti üzündən İran həmin müharibədə məğlub olmuşdu.

Ermənilər Türkmənçay müqaviləsinin şərtlərindən çox məmnun idilər. Tarixçilər erməniləri Türkmənçayın övladları adlandırırdılar, çünki Türkmənçay müqaviləsindən əvvəl ermənilər vətənsiz olublar. Erməni tarixçisi Anahid Terminasın qeyd etdiyi kimi, "ermənilər 1917-ci ilədək Qafqazın heç bir məntəqəsində çoxluq təşkil etməmişlər və onların müəyyən bir əraziləri də yox idi".

O vaxtdan bəri Azərbaycan tarixinin hər səhifəsində terrorçu erməni izi var. Erməni terrorçuları havadarlarına arxalanaraq bütün dövrlərdə Cənubi Qafqazda, o cümlədən Azərbaycanda qan tökmüş, torpaqlarımızı zəbt etmişlər. Adı "sülh müqaviləsi" olsa da, Türkmənçay müqaviləsinin bağlandığı yerdən hələ də Azərbaycanın qanı axır.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Heç kim unudulmur*

# Təki Vətən yaşasın

Ümummilli lider Heydər ƏLİYEV:

*Vətən, torpaq yolunda özünü qurban verənlərin xatirəsi qəlbimizdə daim yaşayacaq, onların şücaəti Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılacaqdır.*





Şəhidlik Vətən sevgisindən doğur...

Şəhidlər ölmür...

Şəhidlərin igidliyi, qəhrəmanlığı zaman keçdikcə əfsanələşir, zaman-zaman yaşadılır, anılır...

Şəhidlərin canı, qanı hesabına qazandıqları azadlıq və müstəqillik heç vaxt unudulmur, heç vaxt yaddan çıxmır.

İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin və Binəqədi rayon Biləcəri qəsəbəsi 298 saylı tam orta məktəbin birgə təşkilatçılığı ilə şəhid İlqar Məmmədovun anım günü keçirildi.

Tədbirdə Müdafiə Nazirliyinin əməkdaşları, ictimaiyyət nümayəndələri, şəhidin ailə üzvləri, müəllimi, sinif yoldaşları və məktəbin şagirdləri iştirak edirdilər.

Məktəbin foyesində şəhidin foto-stendlərindən və şəxsi əşyalarından ibarət sərgi təşkil olundu.

Öncə şəhidin büstü önünə gül dəstələri və əklil qoyuldu.

Ümummilli lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Məktəbin direktoru Şaiqə Hüseynova qeyd etdi ki, bu gün məktəbimizin adını fəxrlə daşıdığı şəhid məzunu İlqar Məmmədovun 45 illiyinə həsr olunan anım mərasiminə toplaşmışıq. "İlqar biz müəllimlərin yaddaşında əsl insani keyfiyyətlərə xas bir şagird kimi yaşayır və yaşayacaq. O, 1974-cü il aprelin 8-də anadan olub. 1980-ci ildə birinci sinfə qəbul olunduğu məktəbi gümüş medalla bitirib. Oxuduğu müddətdə özünü çalışqan, məsuliyyətli, təşəbbüskar və vətənpərvər bir şagird kimi tanıdıb. Bir sıra idman yarışlarında uğurlar qazanıb. 1992-ci ildə Azərbaycan Dövlət Tibb Universitetində oxuyarkən könüllü olaraq cəbhəyə yollanıb. Döyüş meydanında İlqar həm həkim, həm rabitəçi, həm də döyüşçü olub. Hər bir sahədə birinci olmağa çalışan İlqarın səsi ən qızğın döyüşlərdən gəlirdi.



Sonuncu döyüşü 1992-ci il avqustun 15-də "Şişqaya" əməliyyatı olub... Güllə İlqarın düz sinəsindən dəyib... İlqar kimi igid oğullarımızın həyatı gənclərimizə örnəkdir. İlqar Vətəninin, millətinin gələcəyini canından belə əziz bilənlərin sırasındaydı. Bu gün Vətənimizin adı belə qəhrəman oğullarının sayəsində dünyanın inkişaf etmiş ölkələri sırasındadır".

Polkovnik-leytenant Rüfət Mehrəliyev çıxışına ümummilli liderimiz Heydər Əliyev "Hər bir vətənpərvər adam, millətini, xalqını sevən hər bir azərbaycanlı Azərbaycanın müstəqilliyinin daimi, dönməz olması üçün səy göstərməlidir!.." sözləri ilə başlayaraq bildirdi ki, vətənpərvərlik tərbiyəsi hər bir zaman üçün vacib amildir. "Bu baxımdan da şəhid məzunların adlarının məktəblərə verilməsi çox təqdirəlayiq haldır. Bu hal, belə tədbirlər gənclərimizin vətənpərvərlik tərbiyəsində böyük önəm daşıyır. Hər bir insan vətənpərvərliyini əməlləri ilə, gördüyü işlərlə sübut etməlidir. İlqar kimi, Mübariz kimi, Murad kimi, Samid kimi...".

1992-1993-cü illərə nəzər salan zabit vurğuladı ki, bu gün bizim ordumuz dünyanın inkişaf etmiş orduları sırasındadır. Ordumuz hər an Ali Baş Komandan İlham Əliyevin "Döyüş" əmrinə hazırdır.

İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin əməkdaşı, dövlət qulluqçusu Zümrüd Səmədova qeyd etdi ki, Vətənə məhəbbət körpəlikdən, beşikdə ana laylalarından, nağıllardan başlayır. "Tədbir öncəsi Şərifə ana ilə söhbətləşərkən onda vətənpərvərlik hisslərinin çox yüksək olmasını hiss etdim. İlqar kimi qəhrəman oğulu da məhz belə vətənsevər bir ana tərbiyə edə bilərdi... Şəhid ailələri daim Ali Baş Komandanın, Müdafiə Nazirliyi rəhbərliyinin diqqətindədir. Belə bir gündə sizinlə birlikdə olmaqdan könül xoşluğu yaşayırıq. Şəhidlər ölməyib, onlar hamımızın ürəyində yaşayırlar. Tam əminliklə deyirəm, onların nigaran ruhları tezliklə işğaldan azad olunacaq əzəli torpaqlarımızda rahatlıq tapacaq. Bu gün bizim güclü ordumuz var. Tezliklə üçrəngli bayrağımız işğaldan azad olunacaq torpaqlarımızda dalğalanacaq. O gün uzaqda deyil".

Zümrüd xanım bildirdi ki, Qarabağ müharibəsi əlillərinə, veteranlarına və şəhid ailələrinə diqqət və qayğının əsasını ulu öndər Heydər Əliyev qoyub. "Bu gün həmin siyasət yeni mərhələsindədir. Dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birini müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması, hər cür qayğı ilə əhatə olunması təşkil edir. Hər bir əlilin, şəhid ailəsinin qayğısını dövlət öz üzərinə götürür və qısa müddətdə həll edir."

Tədbirdə Binəqədi rayon Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri İlham Qayıbzadə, məktəbin tədris işləri üzrə direktor müavini Xatirə Rəhimbəyli çıxış edərək İlqarın qısa, amma şərəfli ömür yoluna nəzər saldılar. Hər bir şəhidimizin bizim üçün əziz olduğunu bildirdilər.

Tədbirin bədii hissəsində şagirdlərin, Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin birgə hazırladıqları səhnəcik və musiqili kompozisiya təqdim olundu.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyədə beş PKK terrorçusu zərərsizləşdirilib



Türkiyənin Şırnak vilayətinin Bestler-Dereler bölgəsində bu ölkənin Hərbi Hava Qüvvələrinin qırıcılarının dəstəyi ilə uğurlu antiterror əməliyyatı keçirilib.

Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahının rəsmi saytı xəbər verir ki, əməliyyat nəticəsində 5 PKK terrorçusu zərərsizləşdirilib, həmçinin terrorçulara məxsus böyük silah-sursat anbarı aşkarlanıb.

Bundan başqa, Türkiyə qırıcıları İraqın şimalındakı Zap və Gara bölgələrində yerləşən PKK düşərgələrini, sığınacaqlarını və silah anbarlarını məhv edib.

### Məhəmməd Cavad Zərif: İran ordusunun terror təşkilatları siyahısına salınması ABŞ üçün faciə ilə nəticələnəcək



"Rəsmi Vaşinqtonun İran İslam İnqilabının Keşikçiləri Korpusunu (Sepah) terrorçular siyahısına salması ABŞ üçün faciə ilə nəticələnəcək".

Bu sözləri İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif özünün "Tvitter" səhifəsində yazıb.

Ötən həftə ABŞ dövlət katibi Mayk Pompeo bəyan edib ki, İran İslam İnqilabının Keşikçiləri Korpusu dövlət departamentinin tərtib etdiyi terror təşkilatları siyahısına salınacaq və terrorçu təşkilat kimi tanınacaq.

Qeyd etmək lazımdır ki, İran silahlı qüvvələrinin əsasını təşkil edən "Sepah" peşəkar ordudur.

Nazir sosial şəbəkədəki hesabında onu da qeyd edib ki, İranda baş verən təbii fəlakətdən əziyyət çəkənlərə beynəlxalq humanitar yardımların çatdırılmasına mane olan Amerika yenə də beynəlxalq razılaşmaları ayaqları altında tapdalayır.

### Əfqanıstanda partlayış nəticəsində dörd ABŞ hərbçisi həlak olub



Əfqanıstanda Bəhram şəhərində Hərbi Hava Qüvvələrinin bazası yaxınlığında partlayış baş verib.

Partlayış nəticəsində dörd nəfər həlak olub.

Məlumata görə, onlardan 3-ü ABŞ hərbçisi, 1-i isə müqavilələli işçi olub.

### Liviya Milli Ordusu Tripoli aeroportuna nəzarəti ələ keçirdiyini bildirib



Feldmarşal Xəlifə Haftarın başçılıq etdiyi Liviya Milli Ordusu Tripoli beynəlxalq hava limanı üzərində nəzarəti tam ələ keçirdiklərini elan edib.

Müvafiq bəyanat Silahlı Qüvvələrin rəsmi "Facebook" səhifəsində yerləşdirilib. Məlumatda hava limanının yaxın bir neçə saat ərzində paytaxtdakı digər vacib obyektlərin ələ keçirilməsi üçün meydan olacağı qeyd edilir. Tripoli Beynəlxalq aeroportu 2014-cü ildə gedən ağır döyüşlər zamanı tam dağıdılıb və artıq 5 ildir fəaliyyət göstərmir.

Al-Arabiya telekanalının yaydığı digər xəbərə görə, Liviya Milli Ordusunun hissələri bir qədər əvvəl Tripolinin mərkəzindən 10 kilometr məsafədə yerləşən Hallya-əl-Furcan rayonuna daxil olub. Hələlik, bu informasiya rəsmən təsdiqlənməyib.

**AZƏRTAC-ın materialları əsasında**

# Gəncə Qarnizonu Zabitlər Evinin təşkilatçılığı ilə ekskursiyalar təşkil edilib



*Vətənpərvərlik həftəsi çərçivəsində Gəncə Qarnizonu Zabitlər Evinin təşkilatçılığı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantlarının Tərtər rayonuna və Gəncə şəhərinə ekskursiyaları təşkil olunub.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə kursantlar Tərtər rayonunda ümummilli liderimiz Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, abidəsi önünə gül dəstələri düzüblər.

Səfər çərçivəsində kursantlar Tərtər Tarix-Diyarşünaslıq Muzeyini ziyarət ediblər. Ekskursiya iştirakçılarına ümummilli lider Heydər Əliyev və Ali Baş Komandan İlham Əliyevin Tərtərə səfərlərini əks etdirən fotoxronika təqdim olunub və məlumat verilib.

Muzeydə xalqımızın tarixini və mədəniyyətini əks etdirən eksponatlar, qədim dövrdə istifadə olunan məişət əşyaları, eləcə də Aprel döyüşlərində şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın şəkilləri, onlar haqqında məlumatlar, şəxsi əşyalar və hərbi geyim formaları kursantların marağına səbəb olub.

Sonra kursantlar Aprel döyüşləri zamanı işğaldan azad olunmuş əraziləri daha yaxından izləmək imkanı əldə ediblər. "N" hərbi hissəsinə gələn kursantlar yeməkxanada əsgərlərlə birgə nahar ediblər. Tədbirin bədii hissəsində Gəncə Qarnizonu Zabitlər Evinin solistinin ifasında hərbi vətənpərvərlik mahnıları səsləndirilib.



Səfərin davamı olaraq kursantlar Gəncə şəhərindəki Şah Abbas meydanını, Şah Abbas məscidini, Gəncə xanı Cavad xanın məzarını, "Gəncə Tarix-Diyarşünaslıq Muzeyi"ni, İsrafil Məmmədovun Ev Muzeyini, Azərbaycan Xalq Cümhuriyyəti Muzeyini, "Gəncə Qala Qapıları - Arxeologiya və Etnoqrafiya Muzeyi" Abidə Kompleksini, Nizami Gəncəvi Muzeyini, Nizami Gəncəvi Məqbərə Kompleksini və tarixi yerləri ziyarət ediblər.

Gəncə və Tərtərə səfərləri zamanı C.Naxçıvanski adına Hərbi Liseyin kursantlarının əldə etdikləri məlumatlar onların Vətənimiz haqqında biliklərini daha da zənginləşdirib.

# "Qəhrəmanlıq hər bir gəncə örnəkdir"

*Lənkəran şəhər Rasim Məmmədov adına 5 saylı tam orta məktəbində "Aprel döyüşləri tarixi qələbəmizdir" adlı tədbir keçirildi. Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin və Vətənimizin azadlığı, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.*



Çıxış üçün söz alan Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Lənkəran rayon şöbəsinin sədr əvəzi Saleh Dostiyev 2016-cı il aprelin əvvəlində düşmən təxribatına qarşı ordumuzun keçirdiyi uğurlu əks-həmlə əməliyyatlarından - strateji əhəmiyyətli Lələtəpə və Bayraqtəpə yüksəkliyinin geri alınmasından danışdı. Qeyd etdi ki, Vətən, torpaq uğrunda qəhrəmanlıqla döyüşən, cəbhədə hünər göstərən şəhid döyüşçülərimizi tanımaq və onları unutmamaq üçün vətənpərvərlik mövzusunda belə tədbirlərin mütəmadi olaraq keçirilməsi vacibdir.

Sonra müharibə veteranları Təzəxan Əskərov, Məsim Xəlilov, Fikrət Bəşirov, ehtiyatda olan mayor, məktəbin hərbi müəllimi Bəxtiyar Qasımov Aprel döyüşlərinin əhəmiyyətindən danışaraq, qüdrətli ordumuzun sayəsində Ermənistan silahlı birləşmələrinin darmadağın edilməsini, çoxlu sayda canlı qüvvəsinin, hərbi texnikasının məhv edilməsini qürurla xatırladılar.

Məktəbin direktor əvəzi Bəsirə Əzimova Aprel döyüşlərində şəhid olan Vətən oğullarının, bütün Qarabağ şəhidlərinin xatirələrinin hər zaman məktəblərində əziz tutulduğunu, onların anım günlərinin təşkil edildiyini dedi. "Şəhidlər ölmürlər, onlar xalqımızın ən layiqli övladları kimi daim yaddaşlarda qalırlar. Onların göstərdikləri qəhrəmanlıq nümunələri hər bir gəncə örnəkdir".

Məktəb direktoru müharibə veteranlarına və tədbirin təşkil olunmasında zəhməti keçən hər bir müəllim və şagirdə öz dərin minnətdarlığını bildirdi.

Sonda tədbir iştirakçılarına şagirdlərin ifasında ədəbi-bədii kompozisiya, vətənpərvərlik ruhunda şeir və mahnılar təqdim olundu. Tədbir Aprel döyüşlərində şəhid olmuş hərbçilərimizin xatirəsinə həsr edilən fotostendlər, sərgilər, videoçarxların nümayişi ilə davam etdi.

**Həmidə İSMAYILOVA,**
**Lənkəran şəhər**
**5 saylı tam orta**
**məktəbinin müəllimi**

# Xatirə turniri keçirildi

*Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycanın Milli Qəhrəmanı mayor Əfqan Hüseynovun xatirəsinə həsr olunmuş qumbaraatma üzrə lisey birinciliyi keçirildi.*

C.Naxçıvanski adına Hərbi Liseyin fiziki hazırlıq, fənn bölmə rəisi mayor Rəşad Kazımov iştirakçıları salamladı, qəhrəmanın həyat və döyüş yolundan qısaca söz açdı:

- Hörmətli mərasim iştirakçıları! Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsi bir qayda olaraq məktəbimizdə həmişə hörmətlə anılır. Bu gün Hərbi liseydə Azərbaycanın Milli Qəhrəmanı mayor Əfqan Hüseynovun xatirəsinə həsr olunmuş qumbaraatma turniri keçirilir. Əfqan Hüseynov bizim çalışdığımız Hərbi liseyin məzunu olub. Biz həmişə onunla fəxr edib öyünürük. O, 24 fevral 1963-cü ildə Bakı şəhərində dünyaya göz açıb. 1980-ci ildə C.Naxçıvanski adına hərbi təmayüllü məktəbə daxil olub. Təhsilini bitirəndən sonra Bakı Ümumqoşun Komandirləri Məktəbinə qəbul olmuşdur. 1984-cü ildə SSRİ Müdafiə nazirinin əmri ilə ona leytenant hərbi rütbəsi verilmişdir. 1985-1987-ci illərdə Əfqanıstan müharibəsində iştirak edib. Göstərdiyi qəhrəmanlığa görə "Qızıl ulduz" ordeni ilə təltif edilib. 1988-ci ildə C.Naxçıvanski adına hərbi təmayüllü məktəbə bölük komandiri təyin edilib. 1992-ci ilin əvvəllərindən Əfqan Hüseynov Milli Qvardiyanın sıralarında xidmətə başlayıb. Ermənı işğalçıları torpaqlarımıza hücum edəndə başqa vətənpərvər zabitlərimiz kimi o da ağır döyüşlər gedən Qubadlı, Laçın bölgəsinə yollanıb. Şərəfli ömür və döyüş yolu keçən mayor Əfqan Hüseynov 1 noyabr 1992-ci ildə üzərinə düşən tapşırığı yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Ümummilli lider Heydər Əliyevin 15 fevral 1995-ci il tarixli fərmanı ilə döyüşlərdə göstərdiyi igidliyə görə ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Zabit Rəşad Kazımov daha sonra yarışın əhəmiyyətindən də danışaraq bildirdi ki, belə turnirlərin keçirilməsi kursantların həm fiziki hazırlıqlarına, həm də hərbi vətənpərvərlik tərbiyəsinə müsbət təsir göstərir. "Əsas məqsədimiz ordumuz üçün bilikli zabitlər hazırlamaq, ölkəmiz üçün layiqli vətəndaşlar tərbiyə etməkdir. Kursantların Hərbi Liseydə həm təhsil almaları, həm də bir vətəndaş kimi formalaşmaları üçün hərtərəfli şərait yaradılıb. Biz mövcud olan bu şəraitdən lazımınca bəhrələnərək məqsədimizə nail oluruq. Turnir iştirakçılarına qarşıdakı gərgin mübarizədə uğurlar arzulayıram. Birincilik uğrunda 6 komanda mübarizə aparacaq və hansı güclüdürsə, o da qalib gələcək."

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 275
Nüsxə 3950